www.ebi.org.az
№07 (79) 2012

# ƏMLAK BAZARI

MƏNZİL İNTERYERİ

TİKİNTİ · MEMARLIQ · DİZAYN · İNTERYER · ANALİTİKA · ALQI-SATQI · QİYMƏTLƏNDİRMƏ




Qaradağ Sement artıq Holcim oldu.

Holcim

İnşaatda Dünya Təcrübəsi




# Holcim tikinti sənayesində ən qabaqcıl texnologiyalar və müasir həll yolları təqdim edir

*Holcim (Azərbaycan) şirkətinin zavodu, keçmiş Qaradağ Sement zavodu, paytaxt Bakının kənarında yerləşir. 2009-2011-ci illər ərzində zavodun yenidən quraşdırılması və istehsalın artırılması məqsədilə 300 milyon avro dəyərində layihə həyata keçirilmişdir ki, bu da Azərbaycanın qeyri-neft sektorunda ən böyük investisiya qoyuluşu hesab olunur. Bu zavod İsveçrənin Azərbaycanda ən dəyərli biznes aktividir.*

Həmin investisiya qoyuluşunun davamı olaraq 2012-ci il 26 aprel tarixində "Qaradağ Sement" ASC-nin adı dəyişilərək Holcim (Azərbaycan) ASC oldu. Bu addım Azərbaycandakı şirkətin Holcim Qrup-un beynəlxalq şəbəkəsinə daha sıx inteqrasiya olması və müxtəlif regional layihələrdə iştirak etməsi üçün atılmışdı.

1912-ci ildə İsveçrədə təsis olunmuş Holcim hazırda 70-dən çox ölkədə fəaliyyət göstərən aparıcı beynəlxalq istehsalçıya çevrilmişdir. 1999-cu ildən etibarən Holcim-in Azərbaycandakı investisiya strategiyası davamlı inşaat, ətraf mühit və sosial məsələlər nəzərə alınaraq həyata keçirilmişdir. Bu da Holcim-i ölkənin gələcək iqtisadi inkişafı üçün mühüm bir "bünövrə"yə çevirir.

Həmin strategiyanın bir hissəsi olaraq, Holcim zavodun hazırki ərazisində müasir quru üsullu soba xəttinin inşası üçün investisiya qərarı verdi. 2008-ci ilin yanvarında Yeni Soba layihəsi Holcim şirkətinin Direktorlar Şurası tərəfindən təsdiqləndi. 2009-cu il aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev və Holcim Qrup-un Baş İcraçı Direktoru, cənab Markus Akermann-ın iştirakı ilə Yeni Soba layihəsinin təməli qoyuldu.

2012-ci ilin 10 iyul tarixində isə Yeni Soba layihəsinin tikintisi başa çatdı və açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev və Holcim Qrup-un Baş İcraçı Direktoru, cənab Bernard Fontana iştirak etdi. Yeni müasir quru üsullu soba xətti bütün Cənubi Qafqaz regionunun sement sənayesində yeni dövrün başlanğıcı oldu. Quru üsullu istehsal prosesi su və yanacağın səmərəli istifadəsi, həmçinin ətraf mühitə ziyansız olması baxımından Avropada ən geniş yayılmış və ən qabaqcıl texnologiyadır. Bu texnologiyaların tətbiqi yerli istehsalı dəstəkləyir və bununla da ölkənin daha da inkişaf etməsinə təkan verir.

Açılış mərasimində iştirak edən mötəbər qonaqlar arasında İqtisadi İnkişaf Naziri cənab Şahin Mustafayev, İsveçrənin Azərbaycandakı səfiri xanım Sabine Ulman Şaban, Holcim Qrup-un Müşahidə Şurasının üzvü cənab Markus Akermann, həmçinin digər yüksək səviyyəli dövlət və hökumət rəsmiləri və xarici qonaqlar var idi.

Layihə nəticəsində zavodun istehsal prosesi tamamilə təkmilləşdirilmiş və köhnə nəm üsullu

soba xəttləri bir quru üsullu soba xətti ilə əvəzlənmişdir. Yeni istehsal xəttinin tətbiqi nəticəsində zavodun sement istehsal gücü 30%, yəni illik 1.3 milyon tondan 1.7 milyon tonadək artacaqdır. Holcim (Azərbaycan) ətraf mühitə təsirin, havaya buraxılan qazların azaldılması, yenilikçi alternativ yanacaq resurslarının (AYR) istifadəsi və tullantıların təkrar emalı istiqamətlərində öz fəaliyyətini davam etdirir.

Holcim şirkəti yeni texnologiya və bilikləri tətbiq etməklə, yeni iş yerləri açmaqla, işçilərin təlimi və inkişafını dəstəkləməklə, ətraf mühit göstəricilərini təkmilləşdirməklə, yüksək keyfiyyətli məhsullar istehsal etməklə, müştəri yönümlü fəaliyyət göstərməklə və maarifləndirmə proqramları həyata keçirməklə daim Azərbaycanın inkişafına dəstək vermək niyyətindədir. Holcim bu niyyətini Azərbaycandakı son onillik fəaliyyəti ərzində nümayiş etdirmiş və gələcəkdə də bunu davam etdirmək niyyətindədir.

Eyni zamanda Holcim şirkəti infrastruktur, kommersiya tikililəri və yaşayış binaları üçün yenilikçi məhsul və həll yollarının təchizatı, bütün işçilər üçün daha yaxşı iş şəraitinin və həyat şəraitinin təmin edilməsi istiqamətində fəaliyyət göstərir. 500-dən çox əməkdaşı olan Holcim (Azərbaycan) ASC onların həyat səviyyəsini, iş şəraitini və peşəkar inkişafını yaxşılaşdırmaq məqsədilə mütəmadi olaraq imkanlar yaradır. Spesifik və ixtisaslaşmış treyninqlərdən başqa, işçilər həmçinin İşyerində Sağlamlıq və Təhlükəsizlik standartlarını, Korporativ Davranış qaydalarını əhatə edən təlimlərdə də iştirak edirlər.

Holcim (Azərbaycan) ASC Azərbaycanın biznes mühitində Korporativ Sosial Məsuliyyət (KSM) sahəsinə diqqət yetirən ilk şirkətlərdən biridir. KSM proqramı ölkənin davamlı inkişafına fayda vermək və cəmiyyətin gələcək inkişafı üçün möhkəm təməllər qoymaq məqsədi daşıyır. Bu il Holcim şirkəti özünün yüzilliyini qeyd edir. Bununla əlaqədar olaraq şirkətin əməkdaşları müxtəlif fərdi könüllü layihələr təşkil etməklə cəmiyyətə öz töhfələrini vermək qərarına gəliblər. İşçi heyətin təxminən yarıdan çoxu 2012-ci il ərzində ağacların əkilməsində və Ümid qəsəbəsinin sakinləri üçün kitabxana yaradılmasında iştirak edəcəklər. Bütün könüllü tədbirlər "İctimaiyyət üçün birlikdə" şüarı altında həyata keçiriləcək.

Eyni zamanda, Holcim (Azərbaycan) tikinti sənayesində ən yüksək müştəri məmnuniyyətinə nail olmaq imkanlarını araşdırır. Şirkət məsələlərin müzakirəsi və tələblərin qarşılanması məqsədilə müştərilərlə sıx münasibət saxlayır.

Holcim şirkəti 100 illik fəaliyyəti zamanı özünün əsas missiyasına nail olmaq üçün daim yerli xammal potensialından, yüksək keyfiyyətli məhsullardan, öz yüzillik təcrübəsindən və yenilikçi texnoloji nailiyyətlərdən istifadə etmişdir. Holcim (Azərbaycan) ASC-nin əsas məqsədi tikinti sənayesində ən hörmətli və cəlbedici şirkət olmaq, həmçinin Qafqaz və Xəzəryanı regionunda həyata keçirilən strategiyanın aparıcı elementinə çevrilməkdir.

Dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərən Holcim Qrup-da 80.000-dən çox işçi çalışır. Şirkət dünyanın aparıcı sement, doldurucu (qırmadaş, çınqıl və qum), həmçinin hazır beton və asfalt təchizatçısıdır. 2003-cü ildən etibarən Holcim Qrup hər il "Dou Cons Ümumdünya Davamlılıq İndeksi"nin üzvü kimi təsdiq edilir və şirkət tikinti materialları sənayesində dünyanın ən davamlı şirkətlərindən biri kimi tanınır. Holcim həmçinin "FTSE4Good Davamlılıq İndeksi"ndə də sıralanır.



Holcim

